

*Zakir Baqir*

# Elçilik

Hekayə

Bu xəbər  tezliklə hər tərəfə yayıldı.

- Lut Bəhrəmin qızı üçün Alxas elçi gəlib.

Buna inananda oldu,inanmayanda.

- Alxasın pulunu balta kəsməz.Necə ola bilər ki, çox kasıb bir adamın qızına elçi gəlsin?

Amma yayılan xəbər duzgun idi. Artıq qadınlar razılığa gəlmışdilər.

Paxıllıq edənlərdə vardı:

- Bizim kimi imkanlı adamı qoyub,nə əcəb lutun birinin qızına  elçi gəlib?

Sevinənlərdə vardı:

- Nəhayət Bəhrəm xoş gün görəcək.Bəhrəmin marketə borcu vardı. Market  sahibi adamların yanında ağzına gələni deyirdi:

Nə qədər nisyə mal götürəcəksən? Halbuki, gec də olsa Bəhrəm borcu ödəyirdi.

Xəbər yayılandan sonra market sahibi Bəhrəmi təbrik etdi:

- Xoşbəxt olsunlar.Təzə mal almışıq nə vaxt istəsən istədiyini  ala bilərsən.Market sahibi düşünürdü ki, Bəhrəm imkanlı bir adamla qohum olur. Aldığı malların pulunu nağdı verəcək.

Xarici maşını olan sırtıq Amid maşını düz Bəhrəmin yanında saxladı:

-Səni təbrik edirəm.Xoşbəxt olsunlar.Nə vaxt maşın lazım olsa xəbər eylə.Qulluğunda hazıram. Bu sözləri deyən o Amid idi ki,heç Bəhrəmi maşına mindirməzdi.

-Onda pul nə gəzir?

Bir dəfə belə bir hadisə olmuşdu.Qonşusu Sırtıq Amidə demişdi:

- Həyətdə bir az mryvə dərmişəm sabah səhər maşını götur, gəl bizə meyvələri aparaq bazara. Səhərisi günü sırtıq Amid maşınla qonşusu gilə gəlmiş, meyvələri maşına yukləyib bazara aparmışdı.Qonşusu maşından düşəndə:

- Sağ ol, demişdi. Amma pul verməmişdi.Qonşunun arvadıda maşında olduğu üçün Sirtıq Amid heç nə deməmişdi. Ürəyində:

-Elə bil dədəsinə borcum var.Aradan bir müddət keçmişdi.Qonşusu yenə də ona demişdi:

-Həyətdə bir az meyvə dərmişəm.Sabah səhər gəl bizə.Meyvələri aparaq bazara.Səhərisi meyvələri maşına yukləyib bazara yola düşmüşdülər Sırtıq Amid maşının benzin satan yerdə saxlamışdı.

-Qonşu, nə pis oldu.Maşının benzini qurtardı.Tərs kimi puluda evdə qoymuşam.

Qonşusu soruşdu:

-Benzin almaq üçün nə qədər pul lazımdır?

Sırtıq Amid keçən dəfə ki, maşın pulunu hesabladı.Bir qədərdə üstünə qoydu.İndiki maşının pulu ilə birlikdə:

-Filan qədər,-demişdi.

-Çox deyil?

Dəqiqələr,saatlar  keçmişdi.Qonşu məcbur olub pulu ödəmişdi.Artıq heç kim onu Lut Bəhrəm yox sadəcə Bəhrəm çağırırdı.

Hamı Alxası yaxşı tanıyırdı.Amma oğlunu tanımırdı.Axı o, burda yaşamırdı.Bəziləri deyirdi:Oğlu Rusiyada yaşayır.Türkiyədə,Amerikada, Danimarkada....yaşayır deyənlərdə vardı.Atası kimi böyuk şirkətin sahibidir.Heç vaxtı var ki, rayona gəlsin?Bu gün bir ölkədə, sabah başqa ölkədədir.

Nişan Bəhrəmin həyətində keçirdi Bəhrəmin evində bu qədər adamın oturması üçün  şərait yox idi.Havalar isti keçirdi.Qadınlar başqa yerdə, kişilər də başqa yerdə əyləşmişdilər.Qadınlar bir-birinə aman vermədən Bəhruzun arvadını tərifləyirdilər. Kişi məclisidə çox şən keçirdi. Kimsə ayağa qalxıb özünü tamada e”lan etdi.İlk sözüdə o, söylədi:

- Alxas ”müəllimin” rəhbərlik etdiyi şirkətdə filan qədər işçi çalışır.O, filan qədər adama çörək verir.

Başqası dedi:

- Filan qədər adama çörək vermək hər adama qismət deyil. Ona görə də Alxas ”müəllim” bizim ”atamız” sayılır.

- Alxas ”müllim” hamıya eyni gözlə baxır. Ona görədə o,imkanlı adamlara yox, kasıb ailəyə elçi gəlib.Bu onun böyüklüyünü göstərir.

Nişanda iştirak edənlərin hamısı sağlıq söyləmək istəyirdi.

Hamının başı yeyib-içməyə qarışmışdı.Bir polis maşınının həyətə girməsini heç kim hiss etmədi.Sürücü maşını məclisin yanında saxladı.Hamı çevrilib maşına tərəf baxdı.Əvvəlcə maşından bir mayor düşdü.O, bir uşağın əlindən tutmuşdu.Onlar məclisə yaxınlaşanda mayor uşağın əlini buraxdı.Uşaq məclisdəkilərə nəzər saldı.Sonra Alxasa yaxınlaşdı Rus dilində dedi:

-Baba, atamı axtarıram.

Sonra maşından  sarı saçlı bir qadın düşdü.Əlində bir şəkil vardı .O, qadınların oturduğu məclisə yaxınlaşıb oturanlara nəzər saldı.Alxasın arvadına yaxınlaşdı.

- Yəqin ki,məni o, uşağı göstərdi:

- Unutmamısınız.Mən  sizin gəlininiz, o da nəvəniz. Əlindəki şəkili göstərdi:

-Bu Alxas ”müəllim” dir.Buda sizsiniz.Buda  oğlunuz,mənim həyat yoldaşım.Buda mənəm sizin gəlniniz.Buda nəvənizdir.Neçə vaxtdır oğlunuz,mənim həyat yoldaşım bizi atıb gedib...

Qadın sözun bitirməmiş ikinci polis maşını həyətə girdi.Maşından bir qadın iki uşaq düşub bir baş  məclisə tərəf adımladılar...